Ümumi məlumat	**Fənnin kodu, adı və kreditlərin sayı**	HIST112, Sivilizasiyalar tarixi-2, (6 AKTS)
	Proqram (bakalavr, magistr)	Bakalavr
	Tədris semestri	2019/2020-ci tədris ilinin yaz semestri
	Fənni tədris edən	PhD. Roza Arazova
	E-mail:	rarazova@khazar.org
	Telefon:	(012) 421-79-16 (departament № 219)
	Mühazirə otağı/Cədvəl	**II gün 10:10-11:40** **II gün 11:50-13:40**
	Məsləhət saatları	Tələbələrlə razılaşdırılan vaxtlarda
Prerekvizitlər	**Sivilizasiyalar tarixi-1**	
Tədris dili	**Azərbaycan dili**	
Fənnin növü	**Məcburi**	

Dərsliklər və əlavə ədəbiyyat	*** şəklində işarələnmiş kitablar cədvəldə göstərilmişdir** **Əsas ədəbiyyat:** **1. *M.Erivanski. Qədim Yunanıstan tarixi. Dərs vəsaiti. Bakı, 1963, 132 s.** **2. *Telman Orucov "Ümumi tarix" I kitab** **3. *Tofiq Mustafazadə. Ümumi tarix, I kitab. Bakı, 2009, III, IV bölmələr Kamal İbrahimov. Qədim dünya tarixi. Dərs vəsaiti. Gəncə, 1992, 710 s. bax: s.183-702.** **4. *Telman Orucov. "Qədim Roma: qüdrətin qabarması və çiçəklənməsi", Bakı 2008, 366 s.** **5. *Kamal** **6. *İlqar Hüseynov, Nigar Əfəndiyeva "Qədim dünya mədəniyyəti". Bakı 2009** **Y. Həsənov. Qədim Roma tarixi. Dərslik. Bakı, 1975** 7. Древние цивилизации. Под. ред. Г.М. Бонгард-Левина. Москва, 1989, 479 с. Bax: fəsil XVI-XVIII 8. История древнего мира. Под. ред. И.М.Дьяконова, В.Д.Нероновой, И.С.Свенцицкой, Москва, 1982. Кн. 1 Ранняя древность, лекции 15,16,17; кн.2. Расцвет древних обществ, лекция 8-19; лекция 22-24; кн.3. Упадок древних обществ, лекция 2-5, 11-13 9. World Cultures.Silver Burdett Ginn. S.112-164 10. Philp Sauvan. Old World,Stanley Thornes (Publishers) LTD,1991.S4-50 11. Mühazirələr

Əlavə ədəbiyyat

1. ***Homer. İliada, Bakı, 2009 və b. nəşrlər**
2. ***Homer. Odisseya, Bakı, Qərb-Şərq, 2009 və başqa nəşrlər**
3. N.A.Kun. Qədim Yunanıstanın mifləri və əfsanələri, Bakı: "Mütərcim", 2008, birinci nəşr
4. ***N.A.Kun. Qədim Yunanıstanın mifləri və əfsanələri, Bakı: "Mütərcim", 2012, ikinci nəşr**
5. Əli Sultanlı. Antik ədəbiyyat tarixi. Bakı, 2008
6. ***Makedoniyalı İskəndər ("Tarixi yaradanlar" seriyasından) Bakı 2001**
7. ***Qay Yuli Sezar ("Tarixi yaradanlar" seriyasından), Bakı 2001**
8. Spartak.Rafaello Covanyoli, Bakı, 2014
9. Мифы и легенды древних греков. Филипп Ардах, Belitha Press 1997

Saytlar

1. http://www.crystalinks.com/romeculture.html

2.https://www.history.com/topics/ancient-history/ancient-rome

3.https://www.nationalgeographic.org/news/traces-ancient-rome-modern-world/

4.https://www.history.com/topics/ancient-history/ancient-greece

5.https://www.ancient-greece.org/

6.https://www.ancient.eu/greece/

Qeyd: Göstərilən ədəbiyyat və əlavə materialları Universitet kitabxanasında və Tarix departamentində əldə etmək olar.

Tədris metodları	**Mühazirə**	Öyrənmə və Tədris Metodları. - Mühazirələr - Mövzu ətrafında interaktiv müzakirələr və yoxlama işləri - Xəritələr, video və digər əyani vəsaitlərdən istifadə - Mövzularla əlaqədar olaraq, Azərbaycan Tarix muzeyi, İncəsənət muzeyinə ekskursiyanın təşkil edilməsi
	Qrup müzakirəsi	**Qeyd: Semestr ərzində fənlə əlaqədar** **Azərbaycan Milli İncəsənət Muzeyində və** **Gənc tamaşaçılar teatrında ("Ezop" tamaşası) iştirak etmək nəzərdə tutulur.**
	Praktiki tapşırıqlar	
	Praktiki məsələnin təhlili	
	Digər	

Qiymətləndirmə	**Komponentləri**	**Tarix/son müddət**	**Faiz (%)**
	Aralıq imtahanı	İmtahan fevral-mart aylarının ortalarına qədər "Qədim Yunanıstan" tarixinə aid keçirilmiş mövzuları əhatə edir	**35 bal**
	Yoxlama	Semestr ərzində 2 yoxlama yazı işləri keçiriləcək. 1 yoxlama Qədim Yunan tarixinə aid 1 yoxlama,Qədim Roma tarixinə aid olacaq.	**5+5**
	Fəallıq	**"Əlavə ədəbiyyat"** siyahısında ulduz işarəsi ilə göstərilən kitablardan ən azı dörd kitabın(3 kitab Qədim Yunanıstan tarixi,1 kitab Qədim Roma tarixinə aid)oxunulması və onların müzakirəsində iştirak etmək.	**5+5**
	Prezentasiya	**Şifahi.** Aralıq imtahanına qədər Yunanıstan tarixinə aid mövzu,Final imtahanına qədər də Roma tarixinə aid mövzu nümayiş olunmalıdır.	**5+5**
	Final imtahanı	Aprel-may aylarında keçirilən Qədim Roma tarixinə aid mövzuları əhatə edir.	**35 bal**
	Digər		
	Yekun		**100 bal**

Kursun təsviri və məqsədləri	Antik sivilizasiya qədim dünya tarixinin tərkib hisssidir. Qayda olaraq antik dünya dedikdə biz qədim Yunanıstan və Roma cəmiyyətlərini nəzərdə tuturuq. Qədim Yunanıstan tarixi Balkan yarımadası və Egey bölgəsində quldarlıq cəmiyyətinin yaranması, çiçəklənməsi və süqutunun öyr ənilməsinə əsas diqqət yetirir. Bu dövr e.ə. III-II min. əvvəllindən yəni Krit adasında ilk dövlətlərin yaranmasından başlayır. Dövrün tədrisi e.ə. II- I əsr. Şərqi Aralıq dənizi bölgəsində yerləşən yunan və ellin dövlətlərinin Roma imperiyası tərəfindən işğalı ilə sona çatır. Yunanlar iki min illik tarixi bir dövr ərzində nəinki iqtisadi cəhətdən güclü olan respublika quruluşlu polis cəmiyyəti yaratmışlar, onlar həmçinin Roma və eləcə də dünya mədəniyyətinə böyük təsir göstərmiş mədəni irsi miras qoymuşlar. Qədim Roma tarixi qədim dünyanın quldarlıq cəmiyyətinin ən yüksək inkişaf nöqtəsi olan Romanın yaranması, çiçəklənməsi və süqutunu geniş şəkildə işıqlandırır.
Tədrisin **(öyrənmənin) nəticələri**	- Antik sivilizasiyalar Qədim Yunanıstan və qədim Roma tarixi haqqında təsəvvür yaranır; - Qədim Yunanıstan və qədim Roma-ümumdünya tarixinin t ərkib hissəsidir; - Qədim Yunan polislərin, qədim Roma dövlət quruluşunu, quldarlıq ictimai-iqtisadi formasiyasının inkişafını öyrənir; - Qədim Azərbaycan mədəniyyətinin antik sivilizasiyalar ilə ortaq izlər daşıdığını öyrənir; **İnkişafetdirici xüsusiyyətlər:** - analitik düşüncə - tənqidi təfəkkür - fikrin müstəqil ifadə edilməsi

Qaydalar (Tədris siyasəti və davranış)	**Davamiyyət** Bütün tələbələr dərslərdə iştirak etməyə borcludurlar. Üzrlü səbəbləri (xəstəlik, ailə vəziyyəti və s.) olanlar dəvamiyyətsizliyinin səbəbini dekanlığa bildirməlidir. 25 % dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır. **Gecikmələr** Dərsə 10 dəqiqədən artıq gecikən tələbyə ona qayib işarəsi yazılır. Buna baxmayaraq, tələbə dərs saatına buraxılır. **Yoxlama işi** Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.

	İmtahanlar Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. Suallar dərs mövzuları əsasında hazırlanacaq. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır. **İmtahan qaydalarının pozuntuları** Aralıq və yekun imtahanında tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmə qadağandır. Həmin halda tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiyməti ilə imtahandan kənarlaşdırılır. **Fənni bitirmə qaydası:** Fənn ciddi olaraq Universitetin qiymətləndirmə siyasətinə riayət edir. Buna görə də bir qayda olaraq, fənni uğurla keçmək üçün ümumi qiymətin 60%-ni toplamalıdır. Qeyri- müvəffəq qiymət alan tələbə digər semestr və ya növbəti il fənni yenidən götürə bilər. **Tələbələrin davranış qaydaları** Dərs zamanı dərs gedişini pozmaq, icazəsiz müzakirə, mobil telefonlardan istifadə və ya qeyri- etik hərəkətlər etmək qadağandır. Fənni uğurla bitirmək üçün tələbələr dərsdə fəal olmalı və digərlərini də iştiraka cəlb etməlidirlər.

Cədvəl (dəyişdirilə bilər)

Həftə	Tarix (planlaşdırılmış)	Fənnin mövzuları Qədim Yunanıstan	Dərslik/Tapşırıqlar
1.	11.02.2020	**Giriş.** Tələbələri tədris fənninin proqramı ilə tanış etmək. "Antik dövr" anlayışı. Antik sivilizasiyalar və Azərbaycan. Qədim Yunanıstanın ümumdünya tarixində yeri. Qədim yunan tarixinin dövrləşdirilməsi. Mənbələr. Tarixi əsərlər. Fəlsəfi və ictimai-siyasi ədəbiyyat. Arxeoloji tədqiqatlar. *Qədim* Yunanıstanın təbii şəraiti və əhalisi.	1, səh. 3-11
2.	18.02.2020	E.ə. III-II minillikdə Krit və Axey dövlətləri. Yunanıstan e.ə. XI-IX əsrlərdə. Bu dövrün kənd təsərrüfatı, sənətkarlıq, ticarət. Nəsli quruluşun dağılması və dövlət ünsürlərinin yaranması.	1, səh. 11-21

3.	25.02. 2020	Arxaik Yunanıstan b.e.ə. VIII-VI əsr. Yunan quldar polis-dövlətlərin yaranması və formalaşması. Qədim Sparta oliqarxik polis nümunəsi kimi. Qədim Attikada polisin formalaşması. Quldar demokratiya- sının bərqərar olması.	1, səh. 21-39
4.	03.03.2020	Yunan-İran müharibələri və onların Yunanıstanın ictimai-iqtisadi və mədəni-siyasi inkişafına təsiri. B.e.ə. V-IV əsrlərdə Yunanıstanın iqtisadiyyatı.	1, səh. 40-49 1, səh. 54-60
5.	10.03.2020	Afina quldarlıq demokratiyası b.e.ə. V əsrdə. Periklin ictimai və mədəniyyət siyasəti. Xarici siyasəti. Peloponnes müharibəsi və onun nəticəsi. Yunanıstan b.e.ə. IV əsrin birinci yarısında. Polis sisteminin böhranı. Heqemonluğ uğrunda mübarizə.	1, səh. 49-54 səh. 60-82
6.	17.03.2020	B.e.ə. VIII-IV əsrlərdə Qədim Yunan mədəniyyəti. Qədim yunan mədəniyyəti inkişafının əsas şərtləri. Yunan dini. Memarlıq. Incəsənət və heykəltəraşlıq. Yunan ədəbiyyatı. Yunan teatrı. Yunan fəlsəfəsi. Elmi biliklər. Qədim Yunan mədəniyyətinin irsinin əhəmiyyəti.	1, səh. 82-101
7.	27.03. 2020	E.ə. V-IV əsrlərdə Makedoniyanın yüksəlişi və Yunanıstanda Makedoniya hegemonluğunun qurulması.Makedoniyalı İsgəndə- rin şərq yürüşü. İsgəndərin yürüşünün tarixi əhəmiyyəti. Ellin dövlətləri, Ellinizmin dövrü təsnifatı. Ellin dövrünün səciyyəvi əlamətləri. Ellinizm mədəniyyəti.	1, səh. 101-116
8.	31.03.2020	**Qədim Roma tarixi** **Giriş.** Mənbələr. Apennin yarımadasının coğrafi mövqeyi və təbii şəraiti. Etnik tərkibi. Etrusk problemi. İtaliyada erkən quldarlıq cəmiyyəti və dövlətin meydana gəlməsi. Roma "padşahlıq dövründə".	3, səh. 4-20; 31-52; 4, səh. 10-28
		ARALIQ İMTAHANI QƏDİM YUNANISTAN TARİXİ **(I-VII mövzular əsasında)**	

9.	07.04.2020	B.e.ə. V-III əsrlərdə Roma respublikasında sinfi və silki mübarizə. E.ə. V-III əsrlərdə Roma respublikasının xarici siyasəti. Erkən Roma mədəniyyəti.	3, səh. 50-66 4, səh. 29-58
10.	14.04.2020	Qərbi Aralıq dənizində ağalıq uğrunda Roma və Karfagenin mübarizəsi. Birinci Pun müharibəsi. İkinci Pun müharibəsi. Romanın Şərqi Aralıq dənizində ekspansiyası və ellin dövlətlərin (Makedoniya, Yunanıstan) dağılması. III Pun müharibəsi. Romanın Aralıq dənizinin qüdrətli quldar dövlətinə çevrilməsi. E.ə. II-I əsrlərdə Roma dövlətində ictimai-iqtisadi münasibətlər.	3, səh. 66-99 4, səh. 59-97

11.	21.04.2020	E.ə. II əsrin sonu və I əsrin əvvəllərində Roma dövləti. Romada siyasi mübarizənin kəskinləşməsi. Müttəfiqlər müharibəsi. Şərq əyalətlərindən Roma əleyhinə h ərəkat. Sullanın dikta- turası. Spartak üsyanı.	3, səh. 106-137 4, səh. 98-167
12.	28.04.2020	Roma resublikası siyasi sisteminin böhranı və Roma respublikasının süqutu. E.ə. 70-ci 60-ci illərdə siyasi qrupların mübarizəsi. I Triumvırat. II Triumvırat. B.e.ə. III-I əsrlərdə Roma mədəniyyəti.	3, səh. 137-173 4, səh. 168-240
13.	05.05.2020	Erkən imperiya dövrü. Oktavian Avqustun prinsipatı. Roma imperiyası Yuli-Klavdilər sülaləsi və Flavilər sülaləsi zamanı.	3, səh. 174-201 4, səh. 241-304
14.	12.05.2020	Roma imperiyası eramızın II əsrində ("Qızıl əsr"). Antonilər sülaləsinin hakimiyyəti. Daxili və xarici siyasət. I-II əsrlərdə Roma mədəniyyəti. Roma imperiyası eramızın III əsrində. Quldarlıq cəmiyyəti və dövlətinin böhranı. Xristianlığın	3, səh. 201-224 4, səh. 305-338
15.	19.05.2020	Roma imperiyası IV əsrdə. Dominat sistemi. Quldarlıq quruluşunun dağılması. Roma imperiyasının Qərbi və Şərqi im- periyalarına bölünməsi. Onların tarixi in- kişafının müxtəlif yolları. Feodosinin ölü- mündən sonra Qərbi Roma imperiyasında vəziyyət. Xalqların böyük köçünün baş- lanması. Qərbi Roma imperiyasının dövlət müstəqilliyinin sonu.	3, səh. 224-243 4, səh. 339-360
		FİNAL İMTAHANI (QƏDİM ROMA TARİXİ)	

Prezintasiya mövzuları.

Qədim Yunan Mədəniyyəti

1. Müasir Yunanıstan (coğrafi şəraiti, siyasi, iqtisadi, sosial həyatı, mədəniyyəti, şəhərləri)
2. Yunan dramaturgiyasında qadın obrazı (Esxil, Sofolk, Evklipd)
3. "İliada" poemasında qadın obrazları
4. Yunan dramaturgiyasının nümayəndələri
5. Yunan filosofları
6. Yunan təbabəti
7. Olimpiya oyunları
8. Yunan panteonu
9. Yunan elmləri
10. Yunan demokratiyası
11. İsgəndər və onun Şərq siyasəti
12. İsgəndər obrazı Şərq ədəbiyyat və mifologiyasında
13. Yunan heykəltəraşlığı
14. Yunan tərbiyəsi və təhsili

Qədim Roma mədəniyyəti

1.İtaliya bu gün (coğrafi şəraiti, siyasi, iqtisadi, sosial həyatı, mədəniyyəti, şəhərləri)
2.Roma-Albaniya münasibətləri
3.Roma qanunvericiliyi (respublikası dövrü; imperiya dövrü)
4. Roma filosofları və natiqləri (Siseron üzərində)
5. Ovid və onun məhəbbət elegiyaları
6. Qədim Romalıların bayramları
7. Roma teatrı və Qladiator oyunları
8. Roma matronası
9. Qədim Roma tarixi şəxsiyyətlərin simasında
10.Hannibal
11. Sezar
12. Oktavia Avqust
13. Neron
14. Sulla
15. Diokletian